BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 *Humanitar elmlər seriyası* 2015

UOT 94 (479.24)

# LƏNKƏRAN QƏZASI BİRİNCİ DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ

**B.B.KƏRİMOV**
***Bakı Dövlət Universiteti***
***behmen_76@mail.ru***

*Dünyanı yenidən bölüşdürmək, nüfuz dairəsi, xammal mənbələri və satış bazarları uğrunda böyük dövlətlərin, iki koalisiyası arasında 1914-cü il iyunun 28-də başlanan Birinci Dünya müharibəsi Azərbaycandan, o cümlədən Lənkəran qəzasından kənarda olsa da, məcburən müharibəyə sürüklənmiş və iqtisadiyyatı müharibə dövrünün qaydalarına uyğun idarə edilməyə başlandı. Çar Rusiyasının cənub ucqarı olan Azərbaycanın digər qəzaları kimi, Lənkəran qəzası da müharibənin təsirindən kənarda qalmamışdı. Müharibə nəticəsində qəzanın əsas aparıcı sahəsi olan kənd təsərrüfatı böyük dağıntıya və durğunluğa səbəb oldu. İş heyvanlarının, təkərli daşıma vasitələrinin hərəkətdə olan orduya səfərbər edilməsi, kəndlilərin sağlam hissəsinin 30 faizinin təsərrüfatdan götürülərək arxada müharibə ilə əlaqədar işlərdə işlədilməsi ölkə təsərrüfatının dağılmasını daha da sürətləndirirdi.*

**Açar sözlər:** Azərbaycan, Lənkəran qəzası, Birinci Dünya müharibəsi

Müharibə zamanı ərzaq böhranının qeyri-adi dərəcədə dərinləşməsi nəticəsində, Lənkəran qəzasında ərzaq məhsullarının çatışmazlığı artmış və onların qiyməti xeyli bahalaşmışdı. Qəzada taxıl, ət, qənd və digər ərzaq məhsulları kəskin surətdə bahalaşırdı. Məsələn, 1916-cı ildə taxılın qiyməti müharibə ərəfəsindəki dövrlə müqayisədə 7-8 dəfə artmışdı.

Tədqiq olunan dövrdə kənd təsərrüfatı dağılması, arxa işlərinə səfərbərliklər, mütəmadi müsadirələr (rekvizisiyalar), bahalıq və möhtəkirlik qəzada kəndlilərin onsuz da ağır olan vəziyyətini daha da çətinləşdirirdi. Artırılmış vergi və mükəlləfiyyətlər kəndlilərin üzərində ağır yük idi. 1914-cü il 24 dekabr qanununa görə, torpaq vergisinin məbləği 50 faiz artırıldı. Dövlət kəndlilərindən yığılan zemstvo vergisi bu illərdə 20 faiz, hərbi vergi isə 50 faiz artdı. Müharibənin birinci altı ayı ərzində qəzada buğda, arpa və çəltik əkini sahəsi xeyli azalmışdı.

Bütün bunlara baxmayaraq, müharibənin qələbəsi naminə, yardım məqsədilə Lənkəran qəzasında müəyyən təşkilati işlər görülmüşdü. Lənkəranda Qafqaz cəbhəsinə kömək məqsədilə 1915-ci ilin yanvar ayında 50 nəfərdən ibarət bir "könüllü" dəstə təşkil edilmişdi. Onun təşkili ilə bağlı "Baky" qəzeti-

nin 1915-ci il 29 yanvar tarixli nömrəsində yazılır: "Məlum olduğu kimi, Lənkəranda 50 nəfərdən ibarət könüllü süvari dəstəsi formalaşdırılıb. Onun təşkili üçün 7.500 rubl pul lazımdır. Olduqca fəlakətli vəziyyətdə olan qəza bunun öhtəsindən gələ bilmir. Hacı Zeynalabdin Tağıyev bu şəhərin sakinlərindən təşkil olunmuş dəstənin bütün xərclərini öz üzərinə götürüb. O, göstərilən məbləği artıq Lənkərana göndərdi. Lənkəran əhalisinin nümayəndələri böyük qiymətli ianəçiyə "İqbal" qəzeti vasitəsilə öz dərin təşəkkürlərini bildirmişlər" (3, 1915, 29 yanvar, № 23).

Tədqiq olunan dövrdə 180-200 min nəfərdən əhalisi olan Lənkəran qəzasında cəmi 50 nəfər "könüllünün" toplanması və hətta onun təşkili üçün müəyyən işlərin aparılmaması qəzanın iri torpaq sahiblərinin müharibəyə münasibətinin birmənalı olmadığını göstərir.

Bu məsələ ilə bağlı "Kaspi" qəzetinin 1915-ci il 1 aprel tarixli nömrəsində "Lənkəran qəzası müharibə ilə əlaqədar olan tədbirlərin həyata keçirilməsindən kənarda qaldığı" haqqında yazılırdı: "Baxmayaraq ki, Bakı quberniyası qəzalarının əksəriyyəti müharibədən zərər çəkmiş müsəlmanlara yardım göstərmək məqsədilə, qəza komitələri ianə toplamaq üçün Bakı müsəlman xeyriyyə cəmiyyətinin çağırışına cavab verdikləri halda, Lənkəran müsəlmanları əllərini sallayıb oturublar. Bu istiqamətdə hələlik heç bir iş görməyiblər və sanki görmək də istəmirlər. Lakin Lənkəran müsəlmanları mümkün dəstəyi göstərə bilərdilər. Buna baxmayaraq, cəbhəyə yardım məqsədilə, Prişibdən olan bir qrup müsəlman öz aralarında pul toplayaraq Bakı müsəlman xeyriyyə cəmiyyətinə göndərib. Doğrudanmı, Lənkəran müsəlmanları aclıqdan əzab çəkən Karsda olan qardaşlara yardım etmək istəmirlər? Ümid edirik ki, orada rəhbərlik edənlər səsimizə səs verəcək. Onlar, heç olmasa, qəzada aclıqdan əzab çəkən müsəlmanların taleyi barədə fikirləşsinlər. Nə vaxta qədər belə bir ağır vəziyyətdə Lənkəran müsəlmanları susacaqlar. Nə edək ki, onlarda bu işə rəğbət oyadaq? Yenə də biz ümid edirik ki, onlar bu işdə bizə yardımçı olacaqdır. Artıq məqam yetişib. Əgər indi yardım etməsələr nə vaxt yardım edəcəklər?" (6, 1915, 1 aprel, № 70).

Bu çağırışa səs verən Lənkəran qəzasının hakim sinfinin nümayəndələrinin təşkilatçılığı ilə, xalqın bu ağır durumuna baxmayaraq, 1916-cı il fevralın 4-5-də rus ordusunun Ərzrum qalasının türklərdən alınması münasibəti ilə Lənkəran şəhərində xüsusi dua məclisi və məktəblilərin qələbə nümayişi keçirilmişdi. 1916-ci il martın 8-də və 11-də Lənkəran şəhərində Novruz bayramı münasibətilə düzəlmiş yığıncaqlarda Lənkəran qəzasının qazisi Mahmudzadə çar II Nikolayın və düşmən üzərində qələbə çalan rus əsgərlərinin sağlıq və şərəfinə dua oxumuşdur. 1916-ci ilin aprelində Lənkəran qəzasının rəisi A.N.Şevçenko və Lənkəran şəhərinin koxası A.P.Tsaturovun təşəbbüsü ilə imkanlı şəxslərdən pul toplanaraq Qafqaz cəbhəsindəki çar ordusuna hədiyyələr göndərmişlər.

Çar ordusunun qələbəsini bayram edən hakim sinfin nümayəndələri, bu ağır vəziyyətdən istifadə edərək yer quruculuğu və mərzləmə işləri adı ilə bir çox dövlət kəndlisini pay torpaqlarından məhrum etməklə, kəndli torpaqlarını

zorla əlindən alırdılar. 1916-cı ilin martında məşhur Rusiya sənayeçisi A.İ.Putilov 42 milyon rubla Lənkəran qəzasında 12 kənd torpaq sahələri satın almışdır. Bununla yanaşı, çar məmurları müharibə illərində hökm sürən qayda-qanunsuzluq şəraitində istifadə edərək, müxtəlif bəhanə ilə kəndlilərin taxılını, mal-qarasını və s. zorla əllərindən alınması nəticədə, qəzada tamamilə torpaqsız kəndlilərin sayı çoxalmış və yoxsul təbəqənin çəkisi artırdı.

Göründüyü kimi, müharibə Lənkəran qəzasının iqtisadiyyatını ağır tənəzzülə uğratmış, kənd təsərrüfatına digər sahələrlə yanaşı heyvandarlıq da ağır zərbə vurmuşdu. Bu dövrdə, mal-qaranın sayı kəskin surətdə azalmış, kəndlilərin iş heyvanlarının 70 faizi səfərbərliyə alınmışdır.

Qəzadan çoxlu iş heyvanlarının, təkərli daşıma vasitələrinin və kənd əhalisinin müəyyən hissəsinin, xüsusilə rusların orduya çağırılması və azərbaycanlıların arxada işləməyə səfərbər edilməsi qəzada kənd təsərrüfatı işlərinin tənəzzülünə səbəb olmuşdu.

Aşağıdakı cədvəldən müharibənin 17 ay ərzində qəzada maldarlığa nə qədər böyük ziyan vurduğunu aydın görmək olar:

| **İllər** | **İribuynuzlu heyvanların sayı** | **Qoyunların sayı** | **Keçilərin sayı** | **Dəvələrin sayı** |
|---|---|---|---|---|
| 1913 | 92.992 | 108.270 | 9.639 | 1.559 |
| 1915 | 77.805 | 63.660 | 6.398 | 676 |

(5, 1915, s. 322; 1917, s. 266).

Müharibənin birinci ilinin beş ayı ərzində Lənkəran qəzasında buğda və arpanın əkin sahəsi 77.859 desyatindən 68.927 desyatinə enmişdi (5, 1915, s. 276-277; 1916, s. 56-57). Azərbaycanın düyü əkən başlıca qəzası olan Lənkəran qəzasında müharibə illərində bu bitkinin də əkin sahəsi xeyli azalmışdı.

Beləliklə, müharibənin ağır nəticələri Lənkəran qəzası əhalisinin vəziyyətini daha da ağırlaşdırdı. Qəzada qıtlıq, bahalıq, çar məmurlarının rüşvətxorluğu, böyük ölüm hadisələrinə səbəb olan müxtəlif xəstəliklər, İran quldurlarının qəzaya soyğunçu basqınları və kəndlilərin istismarı daha da güclənmişdi. Müharibə kəndliləri ən zəruri sənaye mallarından və hətta ən vacib kənd təsərrüfatı mallarından belə məhrum etmiş oldu. Qənd, un və digər bu kimi malları qəzada tapmaq olmurdu. Çay, ət, parça, ayaqqabı, duz, kibrit, neft kimi mallar da qəzada tapılmırdı. Qəza dərin ərzaq böhranı keçirirdi.

"Ətsiz günlər", yəni əhalinin həftədə müəyyən günlər ət yeməsini qadağan edən 1916-ci il 30 iyun tarixli çar qanunu həmin ilin avqust ayında Lənkəran qəzasında da həyata keçirilməyə başlamışdı.

Qəza əhalisi imkansızlıq üzündən onsuz da çox nadir hallarda ət yeyirdi. Lakin çarın qanunu əhalini ətə tamarzı etmişdi. "Baku" qəzetinin 1916-ci il 17 sentyabr tarixli sayında yazılırdı: "Lənkəran qəzasının əhalisi başqa mallar barədə olduğu kimi ət barədə də çox böyük korluq çəkir".

Qəzetdə daha sonra yazırdı: "Bir ay bundan əvvəl bizdə (Lənkəranda-B.K.) 1916-cı il iyunun 30-da təsdiq edilmiş ət yeməyi qadağan edən qanun qüvvəyə minib. Bunun nəticəsində həftədə dörd gün ət yeməyən əhali, sözün

əsl mənasında, aclıq çəkir. Ümumilikdə ət məhsulları o qədər bahadır ki, bazarda tapmaq olmur. Ətlə yanaşı bazarda heç şəkər də tapmaq olmur və şəkər artıq bir aydır ki, gündəlik həyatda yoxdur.

Burada olan bütün mallar baha qiymətə alınaraq Bakıya daşınır. Bakıdan gələnlər qəzanın kəndlərindən baha qiymətə məhsulu alaraq qəzada dəhşətli bahalıq yaradır.

Ət məhsulları yeməyini qadağan edən 30 iyun 1916-ci il qanunu nəticəsində ət məhsullarının istehsalı da azalmışdı. Hətta mal-qaranın saxlanması barədə söhbət gedə bilməz. Yerli əhali yuxarıda göstərilən qanunun tətbiqinə qədər ayda 1200 baş davar və 200 baş iribuynuzlu mal-qara satırdı ki, hətta qonşu İrandan da mal-qara gətirirdi. Hazırda, təbii ki, qanunla bağlı tələbatın azalması ilə mal-qaranın İrandan gətirilməsinin dayandirilması, yalnız yerli mal-qaranın satışı onun məhvinə səbəb olacaqdır.

Qəzada odun da bahalaşıb. Əgər əvvəllər hər $m^2$ 35 rubla satılırdısa, indi Bakıdan gələn şəxslər onu baha qiymətə - 55-56-60 arası alaraq daşıyırlar. Bu da odunun bahalaşmasına gətirib çıxardır. Hazırda Bakıdan gələn şəxslər odunun hər $m^2$-ni 90 rubla alaraq onu 120 rublla 160 rubl arası satırlar. Bir ay bundan əvvəl odun 60-70 rubl idi. Odunun belə baha satılması nəticəsində, meşədə yaşamasına baxmayaraq əhalinin öz tələbatının ödənilməsinə imkan verilmir. Bunun nəticəsində əhali soyuqdan əziyyət çəkir" (3, 1916, 17 sentyabr, № 204).

Daha sonra qəzet yazırdı: "Sentyabrın 9-da, artıq iki dəfədir ki, Bakıdakı Маилов teatrın bir qrup artisti Lənkərana qastrol səfərinə gəlib, teatr ictimai məclisinin yay otaqlar zalında böyük müvəffəqiyyətlə rus dilində Üzeyir Hacıbəyovun "Arşın mal alan" operasını tamaşaya qoymuşlar. Bununla yanaşı, truppa həm də bir neçə tamaşanı səhnələşdirmək niyyətindədir. İkinci dəfədir ki, keçirilən bu tədbirin əsas məqsədi, müəyyən iynələrin toplanması üçün fondun yaradılması barədə çağırışlar etməkdir" (3, 1916, 17 sentyabr, № 204).

İynələr toplamaqla məşğul olan hakim dairələr əhalinin yaşayışı üçün heç bir tədbirlər görmürdülər. Əhalinin yaşayışı üçün zəruri olan ən çox gündəlik tələbat mallarının qıtlığı qəzada görünməmiş bahalığa səbəb olmuşdu. Malların qiyməti müharibədən əvvəlki dövrə nisbətən 300-400 faiz bahalaşmışdı. Müharibənin iki ilində qəzanın özündə hasil edilən kənd təsərrüfatı məhsullarının qiymətlərinin necə bahalandığını aşağıdakı cədvəldən müəyyən etmək olar (6):

| **İllər** | **Ərzaq məhsullarının adları** | | | | |
|---|---|---|---|---|---|
| | **Bir tağar[1] unun qiyməti** | **Bir tağar buğdanın qiyməti** | **Bir tağar arpanın qiyməti** | **Bir tağar noxudun qiyməti** | **Bir tağar çəltiyin qiyməti** |
| 1915 | 30 rubl | 27 rubul | 16 rubul | 35 rubul | 40 rubl |
| 1916 | 75 rubl | 65 rubul | 26 rubul | 65 rubl | 70 rubl |

Cədvəl, "Kaspi" qəzetinin, 30 yanvar 1916-ci il, № 24, əsasında tərtib edilib.

[1] Bir tağar 25 puddur

Bu baxımdan qəza, xüsusən Lənkəran şəhəri ən zəruri sənaye və kənd təsərrüfatı məhsullarından çox böyük qıtlıq çəkirdi. Bazarlarda sabun, duz, kibrit, un, buğda, ət, yağ, düyü, kartof, quş, hətta meyvə və tərəvəz belə tapılmırdı.

Ərzaq böhranının Lənkəran qəzasında qeyri-adi dərəcədə dərinləşməsi nəticəsində ərzaq məhsulları çatışmazlığı yaranmış və xeyli bahalaşmaya səbəb olmuşdu. Taxıl, ət, qənd və digər ərzaq məhsulları kəskin surətdə bahalaşdı. 1916-cı ildə taxılın qiyməti müharibə ərəfəsindəki dövrlə müqayisədə 7-8 dəfə artmışdı. Ərzağın qıtlığı və qiymətlərin fasiləsiz artması üzündən kənd əhalisi aclığa və müflis olmağa məhkum olmuşdu.

Müharibə ilə əlaqədar olaraq tətbiq edilmiş kartoçka sisteminin və əhalinin təzyiqi altında mallara qoyulmuş məzənnənin pozulması qəzada getdikcə bahalığın artmasına gətirib çıxartdı. Bununla yanaşı, qəzaya gələn tacir və möhtəkirlər ac quldurlar kimi qəzanın kəndlərinin canına daraşmaları və ağına-bozuna baxmadan müxtəlif kənd təsərrüfatı mallarını baha qiymətə alaraq, Bakıda və digər şəhərlərdə daha yüksək qiymətə satırdılar. Bütün bunlar, qəzada bahalığın əsl səbəblərindən biri idi.

Qəzada bahalığın səbəblərindən biri də bahalıqla mübarizə aparan əhalinin hər cür tərəqqipərvər təşəbbüsünün yerli hökumət orqanları və iri tacirlər tərəfindən tez boğulması olmuşdu. 1916-ci ilin payızında Astara qəsəbəsinin tərəqqipərvər şəxsləri əhalini ən zəruri sənaye malları ilə təmin etmək üçün "Qənaət" adlı bir istehlak cəmiyyəti təşkil edilmişdi. Yerli pristav, Əhmədov və Bayramov kimi iri tacirlər bu cəmiyyətə qarşı müxtəlif təxribatlar düzəltməklə, nəhayət, onun dağılmasına səbəb olmuşlar.

Müharibə illərində qəzada ərzaq qıtlığının getdikcə artması ölüm hallarının çoxalmasına səbəb olurdu. 1911-ci ildə qəzada 859 adam ölmüşdürsə, 1915-ci ildə 4.143 adam ölmüşdü. Müharibə illərində ölənlərin sayının belə çoxalmasının səbəblərindən biri də qəzada müxtəlif yoluxucu xəstəliklərin meydana gəlməsi və yayılması idi. 1915-ci ilin sentyabr və oktyabr aylarında qəzada çoxlu insan tələfatına səbəb olan vəba xəstəliyi baş vermişdi.

Aclıq və xəstəliyin getdikcə artması ilə əlaqədar olaraq qəzada evlənənlərin sayı azalmış, ölənlərin sayı isə artmışdı. Aşağıdakı cədvəldə bunu aydın görmək olar (5, 1915, s. 215; 1916, s. 35; 1917, s. 241):

| **İllər** | **Evlənənlər** | **Ölənlər** |
|---|---|---|
| 1913 | 1807 nəfər | 3588 nəfər |
| 1914 | 1593 nəfər | 3666 nəfər |
| 1915 | 81 nəfər | 4143 nəfər |

Beləliklə, Birinci dünya imperialist müharibəsi bütün ölkədə olduğu kimi, Lənkəran qəzasında da böyük təsərrüfat dağınıqlarına, ərzaq qıtlığına, bahalığa və müxtəlif xəstəliklərin artmasına və ölüm hallarının çoxalmasına səbəb olmuşdu.

Lənkəran qəzasında da əhalini var-yoxdan çıxaran vasitələrdən biri də çar məmurlarının müxtəlif hiylə və bəhanələrlə əhalidən aldıqları rüşvət idi. Müharibə illərində isə rüşvətxorluq həddini aşmışdı.

Qəzada çar məmurlarının həyasızcasına rüşvətxorluğu o dərəcəyə gəlib çatmışdır ki, quberniya və qəza dövlət orqanları yerlərdə hədsiz rüşvət alır bəzən cinayətkarları hətta məhkəməyə vermək məcburiyyətində olmuşdular. Burada məqsəd məmurların rüşvətxorluğundan arası kəsilmədən şikayət edən kəndliləri sakitləşdirmək idi. 1916-ci ilin yanvar ayında rüşvətxorluqda təqsirləndirilən Şahağac koxasının, həmin il oktyabr ayında təqsirləndirilən Prişib məmurlarının işi dediklərimizi təsdiq etmək üçün kifayətdir (1, 169, siy., 4, iş 1354, v. 1; f. 185, siy., 1, iş 691, v. 6).

Müharibədən əvvəl olduğu kimi, müharibə zamanında da Lənkəran qəzası kəndlilərini soyub və qarət edən düşmənlərdən biri də İran ərazisindən soyğunçuluğa gələn şahsevənlərin basqınları idi. Müharibənin başlanması ilə bu soyğunçu basqınların sayı bir neçə dəfə artmışdı. Qəzaya hücum edən Şahsevən quldur dəstələrinin sıralarındakı atlı silahlı nəfərlərin sayı məhz 1914-ci ilin noyabr ayından başlayaraq artmışdı. 1915-ci ilin noyabr ayının əvvəllərində olan hücumlarda iştirak edən quldurların sayı 400 nəfərə çatmışdı. 1917-ci ildə isə 500-700 nəfərdən artıq olmuşdu. Müharibədən əvvəl bu basqınlar ancaq qəzanın İranla sərhəd olan kəndlərinə qarşı olmaqla, qəza torpaqlarının içərilərinə doğru hələ gəlib çatmamışdılar. Müharibə zamanı isə, əksinə bu hücumlar hətta Lənkəran şəhərinin lap yaxınlığına gəlib çatırdı.

Dövrün görkəmli maarif xadimi Teymur bəy Bayraməlibəyovun "Kaspi" qəzetinin 1915-ci il fevral və mart aylarında dərc etdirdiyi məlumat xarakterli müxbir məqalələri əsasən Lənkəran qəzasında özbaşınalığın hökm sürməsinə, quldurların, oğruların kənd əhalisinə divan tutmasına, onların mal-qarasının oğurlanmasına həsr olunmuşdur. Məsələn, «Bizə Lənkərandan yazırlar» başlığı altında (6, 1915, 12 fevral, № 33) çap olunmuş yazıda Teymur bəy oxuculara bildirir ki, Lənkəranın Təzəkənd qəsəbəsinə basqın edilmiş və yerli əhalidən xeyli mal-qara oğurlanmışdır. Onlara 150 manat ziyan vurulmuşdur. Quldurlar yaxşı silahlandıqları üçün onlardan oğurlanan mal-qaranı hətta kənd starşinası geri qaytara bilməmişdir.

Həmin rubrika altında dərc etdirdiyi başqa bir yazısında Bayraməlibəyov quldurların Keroni kəndinə basqınını pisləmişdir. Yazıda deyilir ki, silahlı oğrular kəndin varlı sakini Məlik Almaz xanın mal-qara saxladığı tövləsinin bir hissəsini uçuraraq, 3 öküz, 2 inək, 1 dana aparmışdır (6, 1915, 19 fevral, №39). Nəticədə, zərərçəkənə 140 manatlıq ziyan vurulmuşdur. Müəllif məlumatında daha sonra bildirir ki, səhəri gün mal-qarasını axtarmaq üçün xan İranın Vana kəndinə yollanır. Bu işə kömək üçün kənd sakini Süleymana müraciət edir. Süleyman öküzləri tapmaq üçün əvəzində 60 manat pul istəyir. O, doğrudan da öküzləri axtarıb tapır və pulu xandan alır. İnək və dananı tapmaqdan isə imtina edir.

Bu qəbildən olan daha bir məlumat (6, 1915, 6 mart, № 52) yenə «Bizə Lənkərandan yazırlar» başlığı altında çap olunmuşdu. Məlumatda xəbər verilir

ki, Xanədə kəndində İran quldurları Mərdəli Süleyman oğlunun tövləsindən 130 manat dəyəri olan inək və öküz oğurlamışlar. Elə həmin gün quldurlar ikinci bir kəndə – Edişa basqın edərək, Muxtar Allahverən oğlunun tövləsindən 2 inək və 2 öküz oğurlamışlar. Zərərçəkən öküzlərini 25 manata geri alsa da, 85 manat qiyməti olan inəyini quldurlardan geri ala bilməmişdi (4, s. 85).

Teymur bəy bu özbaşınalığın qarşısını almaq üçün öz iradlarını yerli hakimiyyət orqanlarına ünvanlanmış və onları işlərini ləyaqətlə yerinə yetirməyə çağırmışdı. Müəllif ürək ağrısı ilə yazırdı ki, quldurların kəndlərə basqın etmələri nəticəsində sakinlərin iri buynuzlu mal-qarası, müxtəlif ev əşyaları, qiymətli xalçaları demək olar ki, hər gün oğurlanır. Odur ki, müxbir yerli əhalini ayıq-sayıq olmağa, pristavları və zemstvo rəisini (kənd yerlərində inzibati və məhkəmə işlərinə baxan məmur) isə quldurlara qarşı ciddi tədbir görməyə çağırırdı.

Bütün bunlarla yanaşı, bu dövrdə - 1914-1917-ci illərdə qəzanın əksər hissəsində kəndli çıxışları bürümüşdü. Aqrar xarakter alan bu çıxışların əsas səbəbi kəndlilərin torpaqsızlığı və az torpağa malik olması idi. Bu məqsədlə kəndlilər kəskin ehtiyac duyduqları torpaq uğrunda mübarizə aparırdılar. Dövlət və mülkədar torpaqlarının tutulması mübarizənin on geniş yayılmış formalarından biri idi. Bu həyəcanlar kəndlilər və hökumət nümayəndələri, mülkədar-qolçomaq dəstələri arasında silahlı toqquşmalara gətirib çıxarmışdı.

Müharibə illərində meşələrin özbaşına qırılması halları artıb ərazisində meşə olan bütün qəzaları əhatə etdi. Özbaşına qırılan meşələrin sahəsi və buna görə kəndlilərdən alınan cərimələr 1916-cı ildə 1913-cü ilə nisbətən təxminən iki dəfə artmış, mülkiyyətin yandırılması halları da çoxalmışdı.

Müharibə illərində kəndlilərdə narazılığı gücləndirən səbəblərdən biri də vergi və mükəlləfiyyətlərin həddən ziyadə artırılması idi. Kəndlilər kütləvi surətdə vergiləri ödəməkdən və mükəlləviyyətləri yerinə yetirməkdən boyun qaçırır, çar məmurlarına və polisə silahlı müqavimət göstərirdilər. Ordu və arxa işlərinə səfərbərliklər, mal-qara və arabaların, taxıl və s. məhsulların fasiləsiz müsadirə edilməsi kəndli həyəcanlarını daha da artırdı.

Müharibə illərində qaçaqların - silahlı kəndli çıxışları xüsusilə kəskin xarakter alaraq, bütün qəzanı əhatə etmişdi. Onlar amansız istismara, hər cür sosial ədalətsizliyə qarşı mübarizə aparır, mütləqiyyətin vergi siyasətinə qarşı çıxırdılar. Başqa sözlə, qaçaq hərəkatı torpaqdan istifadədə hökm sürən qarma-qarışıqlığa, torpaq, suvarma suyu və meşə materialı çatışmazlığına, vergi və mükəlləfiyyətlərin ağırlığına, onların toplanması zamanı yol verilən özbaşınalıqlara, polis məmurlarının zorakı əməllərinə və s. qarşı yönəlmişdi.

1914-cü ilin oktyabr ayında Boradigah kənd icmasının kəndliləri qəzanın iri torpaq sahibləri, Talışinskilərə qarşı inadlı mübarizəyə başlayaraq, onlara icarə haqqı verməkdən imtina edir, torpaqlarına zəbt edirdilər. 1915-ci ilin martın əvvəllərində qəzanın Digə kəndi sakinləri ilə Hacı Mir Sadıq bəy Talışinski arasında torpaq üstündə ciddi bir münaqişə başlandı. Kəndlilər münaqişəli torpağı öz əllərinə keçirmək üçün böyük səy göstərdilər. Həmin ilin yaz və yayında Astara və Ərçivan mahalı kəndliləri ilə Mir Əhməd xan arasında sinfi

ziddiyyətlər yenidən kəskin şəkil aldı. Mir Əhməd xanın 1915-ci ilin iyulun 15-də Qafqaz canişininə yazdığı məktubda "quldur dəstələrinin" onun meşələrini qırdıqlarını, əkin və otlaq yerlərini zəbt etdiklərini, ona 50 min rubl ziyan vurduqlarını" bildirərək canişindən "Köhnə dvoryan nəslindən olan Talışinskiləri məhv olmaqdan xilas etməyi" xahiş edirdi (1, f, 1, siy. 1, iş 1128, v. 1-4.).

1915-ci ilin mayında Putəsər kəndin sakinləri Talışinskilərə icarə haqqı verməkdən qəti imtina etdilər. Bu zaman xanla kəndlilər arasında münaqişə başlandı. Kəndlilər xana köməyə gələn polis nəfərlərinə silahlı müqavimət göstərirdilər.

1916-ci ildə Lənkəran qəzasında mülkədar torpaqlarının kəndlilər tərəfindən zəbt edilməsi, özbaşına əkilməsi, icarə haqqının və müxtəlif vergilərin verilməkdən imtina etməsi halları daha da çoxalmışdı. Bu zaman qəza kəndlilərinin Qafqaz canişininə yazdıqları çoxlu şikayət məktubları dediklərimizi təsdiq edir. Mir Əhməd xandan yazılan şikayət məktublarından birində kəndlilər yazmışdılar ki, mülkədar yüz ildən bəri ixtiyarımızda olan torpaqlardan bizi qovub çıxarır, polis Talışxanovu müdafiə edir, bizi isə öz doğma yurdumuzdan qovub çıxarır, bəzilərimizi isə dustaq edirlər. Əhməd xan milyoner Mayılov və onların adamları kəndlilərə əziyyət verir və zülm edirlər. Biz yoxsul kəndliləri mülkədarların pəncəsindən, təqibdən, sıxma-boğmasından qurtarmağı xahiş edirik (1, f. 1, siy., 1, iş 342, v. 10).

1916-ci ilin aprelində başlayaraq Boradigah kənd cəmiyyətinin 700 heyətdən ibarət olan kəndlilərin etirazları yenidən geniş vüsət almışdı. Bu mübarizə "Əsgərabad" adlanan və hər il 10 min rubl gəlir verən 129 desyatin çəltik əkini sahəsi ilə əlaqədar idi. Həmin mübarizədə 78 nəfər kəndli iştirak edirdi. Kəndlilər həmin torpağı zəbt edərək xana icara həqqı vermədilər. 1917-ci ilin fevralınadək davam edən bu mübarizəyə Bakı quberniyası və Qafqaz canişini idarəsi müdaxilə etdi. Bunun nəticəsində məsələ mülkədarın xeyrinə həll edildi. Lakin kəndlilər mübarizələrini dayandırmamışdılar. Bu barədə Mir Əsgər xan 1916-ci il oktyabrın 19-da Qafqaz canişini Nikolay Nikolayeviçə yazırdı: "boradigahlılar da astaralılar kimi bizim torpaq ərazilərimizi zəbt etmişlər və bizə icarə haqqı vermirlər" (1, f, 1, siy. 1, iş 1145, v. 19-20.).

Göründüyü kimi, əlində olan geniş torpaq sahələrini kəndlilərə güzəştdə getməyi istəməyən yerli mülkədarlar bu torpaqları əldən verməmək üçün Qafqaz canişininə ardı-arası kəsilməyən müraciətlər etmişdilər. Bu məqsədlə, Mir Əsgər xanın yazmış olduğu məktubda göstərmişdi ki, "Əsgərabad" torpağından ildə bizim 10 min rubl gəlirimiz olur, bizə kömək etməyi və zorla bizim torpaqlarımızın zəbt edilməsinin qarşısını alınmasını rica edirəm (1, f. 1, siy., 1, iş 1145, v. 19-20).

1916-ci il sentyabrın 15-də Boradigah kənd cəmiyyəti kəndlilərinin 78 nəfərdən ibarət nümayəndəsinin bu torpaq haqqında olan şikayətlərinə Bakı quberniya idarəsinin birinci şöbəsində yenidən baxılmışdı. Nəticədə məsələ mülkədarın xeyrinə həll edilmişdi (1, f. 1, siy., 1, iş 1145, v. 12-14). Boradigah camaatı Bakı quberniya idarəsinin düzgün olmayan bu qərarından Qafqaz

canişininə şikayət etmişlər. Kəndlilərin inadlı mübarizəsini görən Mir Əsgər xan da özünün və qohumları adından 1916-ci il yanvar ayının 13-də Qafqaz canişininə məktubla üç dəfə müraciət edərək onu və qohumlarını Boradigah kəndlilərinin hücumundan müdafiə etməyi canişindən çox xahiş etmişdi (1, f. 1, siy., 1, iş 1145, v. 19-20, 22, 33). Uzun süründürmədən sonra məsələ mülkədarın xeyrinə həll edilmişdi. Lakin kəndlilər mübarizəni davam etməkdə idi.

Bu çıxışların geniş vüsət aldığı bir dövrdə 1917-ci ildə baş vermiş fevral inqilabi Lənkəran qəzasına böyük təsir göstərmişdi. Qısa vaxt ərzində çar II Nikolayın taxtdan salınması xəbəri Rusiyanın hər yerinə yayılmağa başlamışdı. Çarizmin devrilməsi xəbəri mart ayının 5-də Lənkəran şəhərinə gəlib çatmışdı. Şəhər əhalisi bu xəbəri misilsiz sevinclə qarşılamışdı. Yerli polis orqanları xalq kütlələrindən həqiqəti gizlətmək məqsədilə şayə yaymağa başlamışdılar ki, "qəzetlər yalan yazırlar, Nikolay taxtdan salınmamışdı" (3, 1917, 7 mart, № 53). Lakin polis xalqı inandıra bilməmişdi. Qısa müddətdə çarizmin devrilməsi xəbəri bütün qəzaya yayılmağa başlamışdı.

Çarizmin devrilməsini bilən şəhərin yoxsul əhalisi və şəhər qarnizonunun əsgərləri həmin gün bu münasibətlə əllərində qırmızı bayraqlar dəniz kənarında nümayiş təşkil etmişdilər. Zəhmətkeşlər isə şəhər həbsxanasının qabağına toplanaraq dustaqların azad edilməsini tələb etmişdilər (2, 1917, 24, 27 mart, № 432, 436). Çarizmin devrilməsi xəbəri mart ayının 10-15-i arasında, demək olar ki, qəzanın bütün kəndlərinə gəlib çatmışdı. Kəndlilər də bu xəbəri böyük sevinclə qarşılamışlar.

Fevral inqilabından sonra Azərbaycanın digər qəzalarında olduğu kimi Lənkəran şəhərində iki hakimiyyətlik yaranmışdı. Bunlardan biri hakim siniflərin hakimiyyəti olan Lənkəran qəza icraiyyə komitəsi, digəri isə sovetlər idi. 1917-ci il martın 21-də Bakıdan Lənkəran qəzasına gələn "İctimai təşkilatlar icraiyyə komitəsi"nin nümayəndələri şəhər və qəzanın daimi icraiyyə komitələrini seçmişlər. Lənkəran qəzasında keçirilən seçkilərə Məmməd Əmin Rəsulzadə başçılıq etmişdi. Seçkilərin nəticəsi olaraq qəza icraiyyə komitəsinin sədri Soltan bəy Qulubəyov, onun müavini isə Mir Əsgər xan Talışinski seçilmişdi (1, f. 185, siy., 1, iş 789, v. 168).

Bununla yanaşı 1917-ci ilin ortalarında Lənkəran şəhərində və Astara qəsəbəsində sovetlər də təşkil edilmişdi. Lənkəran şəhərində hərbi-fəhlə-kəndli deputatları soveti olmaqla iki sovet yaradılmışdı.

Beləliklə, müharibə qəzada acınacaqlı vəziyyətdə olan zəhmətkeş kəndlilərin daha da yoxsullaşmasına və müflisləşməsinə gətirib çıxardı. Müharibə zamanı ərzaq böhranının dərinləşməsi nəticəsində Lənkəran qəzasında ərzaq məhsulları çatışmazlığı və onların qiyməti xeyli bahalaşmışdı. Qəzada taxıl, ət, qənd və digər ərzaq məhsulları kəskin surətdə bahalaşdı. Ərzağın qıtlığı və qiymətlərin fasiləsiz artması üzündən kənd əhalisi aclığa və müflisliyə məhkum olmuşdur.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi.
2. “Açıq söz” qəzeti, № 432, 436, 24, 27 mart 1917-ci il.
3. «Баку» qəzeti, 1915-1917-ci illər.
4. Cavadova Esmira. …O, həm də görkəmli etnoqraf idi (Teymurbəy Bayraməlibəyovun həyat və yaradıcılığından səhifələr). Bakı: 2008, 138 s.
5. Кавказский календарь. 1915-1917-ci illər.
6. «Каспи» qəzeti, 1915-1916-ci illər.

## ЛЕНКОРАНСКИЙ УЕЗД В ГОДЫ ПЕРВОЙ МИРОВОЙ ВОЙНЫ

**Б.Б.КЕРИМОВ**

## РЕЗЮМЕ

Несмотря на то, что Азербайджан и, в том числе, Ленкоранский уезд были в стороне от Первой мировой войны, страна была втянута в нее и экономика стала управляться по законам военного времени. В результате этого, ведущая отрасль уезда – сельское хозяйство оказалось в большом упадке и застое.

В связи с войной Ленкоранский уезд испытывал недостаток продовольствия, цены на которое сильно возросли. В уезде значительно подорожали хлеб, мясо, сахар и др. продукты. Дефицит продовольствия и непрерывный рост цен обрекал сельское население на голод и обнищание. В уезде усилилось самоуправство царских чиновников, увеличились смертельные случаи от болезней, грабительские нападения банд из Ирана и эксплуатация крестьян. Особо уродливые формы приняло ростовщичество.

Крестьянское движение против самоуправства властей в короткий срок распространилось на большие территории. Экономический и политический кризис, порожденный войной, день ото дня растущее крестьянское движение свидетельствовало о возникновении в Ленкоранском уезде, как и во всем Азербайджане, новой революционной ситуации.

**Ключевые слова:** Азербайджан, Ленкоранский уезд, Первая мировая война

## LANKARAN DISTRICT DURING THE FIRST WORLD WAR

**B.B.KARIMOV**

## SUMMARY

Despite the fact that Azerbaijan, including Lankaran district, refrained from the First World War, the country was dragged into it, and the economy began to be governed by the laws of war. As a result, the county’s leading industry - agriculture turned out in great decline and stagnation.

In connection with the war, Lankaran district lacked food, the prices of which had rised sharply. There was a significant rise in the prices of bread, meat, sugar and other products. Food shortages and the continuous rise in prices condemned the rural population to hunger and poverty. The arbitrariness of royal officials, deaths from diseases, predatory gang attacks from Iran and the exploitation of the peasants considerably increased.

The peasant movements against the arbitrariness of the authorities in a short time spread over a large area. Economic and political crisis caused by the war, growing peasant movements in Lankaran district, as well as throughout Azerbaijan formed a new revolutionary situation.

**Key words:** Azerbaijan, Lankaran district, The First World War